**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# ATİB OFİSİNDƏ KEYFİYYƏTİ İDARƏETMƏ SİSTEMLƏRİ MÖVZUSUNDA SEMİNARLAR KEÇİRİLİR

**No: 10/04/121**
**30.03.2010**

ATİB ofisində keyfiyyəti idarəetmə sistemləri mövzusunda "Keyfiyyəti idarəetmə sisteminin mahiyyəti və səmərələri" və "Beynəlxalq idarəetmə sistemlərinin Azərbaycanda tətbiqi vəziyyəti və perspektivləri" adlı seminarlar keçirilib. Seminarlar Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) və ASR Konsaltinq və Araşdırma Qrupunun birgə təşkilatçılığı ilə həyata keçirilib.

"Keyfiyyəti idarəetmə sisteminin mahiyyəti və səmərələri" adlı seminarı Elxan Mikayılov aparıb. Seminarda keyfiyyət anlayışının izahı, keyfiyyəti idarəetmə sistemlərinin inkişaf tarixi, müasir şəraitdə onların rolu və əhəmiyyəti o cümlədən, tətbiq olunan qurumlarda əldə olunan səmərələri haqqında geniş məlumat verilib və tədbir qarşılıqlı müzakirələrlə müşayiət olunub. Eyni zamanda İSO 9001:2008 Standartı, onların maddələri və tətbiqi haqqında da iştirakçılara məlumat verilib.

Təlimin aparıcısı Elxan Mikayılov Azərbaycan Dövlət İqtisad Universitetinin Standartlaşdırma fakültəsində təhsil alıb. Bu sahədə magistr elmi dərəcəsinə sahibdir. Cənab Mikayılov Beynəlxalq standartlaşdırma təşkilatının (İSO) rəsmi eksperti, İSO standartları sahəsində tədqiqat və çap materiallarının müəllifi, şirkətlərdə İSO standartlarının tətbiqində yaxından iştirak edən beynəlxalq dərəcəli mütəxəssisdir.

"Beynəlxalq idarəetmə sistemlərinin Azərbaycanda tətbiqi vəziyyəti və perspektivləri" seminarın aparıcısı Samir Novruzlu keyfiyyəti idarəetmə sistemlərinin tələbləri barədə məlumat verib. Seminarda beynəlxalq idarəetmə sistemlərinin ölkəmizdə inkişaf tarixi və tətbiqi vəziyyəti, bu istiqamətdə aparılan araşdırmalar haqqında iştirakçılara məlumat verilib. Bunlarla yanaşı yerli şirkətlərdə beynəlxalq idarəetmə standartları haqqında yanlış təsəvvürlər və onların doğurduğu fəsadlar haqqında da müzakirələr təşkil olunub və fikir mübadiləsi həyata keçirilib.

Təlimin aparıcısı Samir Novruzlu Azərbaycan Dövlət Neft Akademiyasının Standartlaşdırma fakültəsində təhsil alıb. Cənab Novruzlu onlarla şirkətdə Beynəlxalq idarəetmə sistemləri üzrə çoxillik məsləhətçi ekspert təcrübəsinə malikdir, standartlaşdırma, keyfiyyət və idarəetmə sahələrində bir sıra kitabların, məqalələrin o cümlədən digər nəşrlərin müəllifidir. Hal-hazırda O, "Keyfiyyət Assosiasiyası" İctimai Birliyinin idarə heyətinin sədridir.

Seminarlarda ATİB əməkdaşları, "AtaHoldinq" ASC, "CLC" MMC, "Mətanət A", "TAIS IKF", "Turquoise" MMC, "Unikal" və digər şirkətlərin nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) ASR Konsaltinq və Araşdırma Qrupu ilə əməkdaşlıq çərçivəsində "Korporativ sosial məsuliyyət", "Beynəlxalq mühasibat uçotu", "Ümumdünya Ticarət Təşkilatı və ona üzvlük məsələləri", "İdxal-ixrac prosedurları və onların beynəlxalq tələblərə uyğunlaşdırılması" mövzusunda seminarların təşkilini planlaşdırır. Seminarda iştirak pulsuzdur. Yerlərin sayı məhduddur. Seminarda iştirakla bağlı ATİB ilə əlaqə saxlaya bilərsiniz.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə əlaqələr şöbəsinə istinad edilməsi vacibdir**